

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 1 (23.643)

*1 yanvar 2021-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 31-də Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Nümayəndə heyətinə Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Yaşar Güler, Türkiyə Respublikasının Quru Qoşunları komandanı Ümit Dündar və Türkiyə Respublikasının Hərbi Dəniz Qüvvələri komandanı Adnan Özbal daxildir.

Prezident İlham Əliyev qonaqları və bütün Türk Silahlı Qüvvələrini Yeni il münasibətilə ürəkdən təbrik edib, qardaş Türkiyə dövlətinə, qardaş türk xalqına, şəxsən cənab Prezident Rəcəb Tayyib Ərdoğana göstərilən böyük dəstəyə görə bir daha təşəkkürünü bildirib.

Qeyd olunub ki, Azərbaycan üçün bu il xüsusi əhəmiyyət daşıyır, böyük Zəfər ili kimi Azərbaycan tarixində əbədi olaraq qalacaq. Uzun illərin işğalına son qoyuldu, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Ölkəmizin başçısı işğaldan azad edilmiş torpaqlarda artıq bərpa işləri başlandığını, ilkin tərəfdaşlarımızın yenə də türk şirkətləri olduğundan məmnunluğunu bildirib.

Dövlətimizin başçısı vurğulayıb ki, gələn il ölkəmiz üçün böyük quruculuq ili olacaq. Ermənilər tərəfindən Azərbaycana qarşı terror aktları törədilsə də, bütövlükdə, atəşkəs saxlanılır və bu, noyabrın 9-dan 10-na keçən gecə imzalanmış Bəyanatın müsbət tərəfidir. Prezident İlham Əliyev Azərbaycan, Ermənistan, Türkiyə dəhlizinin formalaşması istiqamətində görüləcək işlərdən, noyabrın 10-da imzalanmış Bəyanatın önəmli hissəsi olan Naxçıvan dəhlizinin açılacağından, Türkiyə-Rusiya Monitorinq Mərkəzinin fəaliyyətə başlamasının zəruriliyindən də danışıb.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli Sərəncamı ilə xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşları təltif edilmişlər. Təltif edilənlər arasında Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşları da vardır.

**Həsənov Oqtay Özbəyi oğlu – kapitan**

"Hərbi xidmətlərə görə" medalı ilə,

**Əliyev Xəzər Vaqif oğlu**

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə,

**Hüseynov Nəsimi Zahid oğlu – daxili xidmət mayoru**

3-cü dərəcəli "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə təltif edilmişlər.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafında xidmətləri olan bir qrup şəxs təltif edilmişdir. Təltif edilənlər arasında Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı sahəsində çalışanlar da vardır.

**Rzayev Hümbət Məmməd oğlu**

"Əməkdar kənd təsərrüfatı işçisi" fəxri adı ilə,

**Talıbov Cehun Abbas oğlu**

1-ci dərəcəli "Əmək" ordeni ilə,

**Cəfərov Hüseyn Oruc oğlu**

2-ci dərəcəli "Əmək" ordeni ilə,

**Həsənov Cəmşid İbrahimxəlil oğlu**

3-cü dərəcəli "Əmək" ordeni ilə,

**Seyidov Mirvasif Adil oğlu**

**Şıxəliyev Fariz Qəzənfər oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli Sərəncamı ilə Azərbaycanda dəmir yolu nəqliyyatının inkişafında səmərəli fəaliyyətinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif edilənlər arasında "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin əməkdaşları da vardır.

**Allahverdiyev Mübariz Həsən oğlu**

**Cavadov Ağa Tahir oğlu**

**Əliyev Asif Çərkəz oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli Sərəncamı ilə xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşları təltif edilmişlər. Təltif edilənlər arasında Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşı da vardır.

**Seyidov Kənan Mir Yəhya oğlu**

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.

## Dövlət-ordu-xalq birliyi

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Şərur rayonundakı hərbi hissədə olub





Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"Hamımız üçün bir böyük məfhum var: Azərbaycan Respublikası, Azərbaycan xalqı. Bu məfhum ətrafında hamı sıx birləşməlidir".***

Əsası ulu öndərimiz tərəfindən Naxçıvan Muxtar Respublikasında qoyulan həmrəylik və ordu quruculuğu siyasəti bu gün ölkəmizdə uğurla davam etdirilir. Birlik və həmrəylik ölkəmizin davamlı inkişafını təmin etməklə yanaşı, həm də ordumuzun qüdrətini artırır. Bunun nəticəsidir ki, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuz Vətən müharibəsində tarixi qələbə qazandı. Naxçıvan Muxtar Respublikasında xalqımızın milli birliyinin rəmzinə çevrilən Dünya Azərbaycanlılarının Həmrəyliyi Günündə əsgərlərlə görüşlərin keçirilməsi, sovqatların aparılması da dövlət-ordu-xalq birliyinin daha bir nümunəsi kimi mühüm əhəmiyyətə malikdir.

Dekabrın 31-də – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günündə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov hərbi hissədə olmuşdur.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev Ali Məclisin Sədrinə raport vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov əsgərləri salamlamış, onları Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edərək demişdir: Bu il ölkəmiz 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü Qələbə bayramı ilində qeyd edir. Həmrəylik günü 1991-ci il 16 dekabrda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyən ümummilli liderimiz Heydər Əliyev tərəfindən qəbul edilmişdir. Həmin dövrdə Azərbaycanda separatizm, hərc-mərclik, qarşıdurmalar hökm sürür, bundan istifadə edən düşmən isə torpaqlarımızı işğal edirdi. Lakin Naxçıvanda əhali ümummilli liderin ətrafında birləşərək sabitlik, inkişaf yolunu seçdi, muxtar respublikanın ərazisini qorudu, Heydər Əliyev-xalq birliyi yarandı. 1993-cü ildə ümummilli liderin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra Naxçıvanda yaranmış Heydər Əliyev-xalq birliyi, həmrəyliyi, bütövlükdə, Azərbaycanda dövlət-xalq birliyinə çevrildi. Ulu öndərin rəhbərliyi və qətiyyəti sayəsində Azərbaycanda sabitlik yarandı, müstəqilliyimiz qorundu və hərtərəfli inkişafın əsası qoyuldu.

Ali Məclisin Sədri demişdir: Ümummilli liderin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda dövlət-xalq-ordu birliyi formalaşmışdır. Bu birliyin nəticəsi İkinci Qarabağ müharibəsində öz təsdiqini tapdı. Ölkə Prezidentinin bir çağırışı ilə minlərlə insan səfərbərlik xidmətlərinə müraciət edərək könüllü cəbhəyə getməyə hazır olduqlarını bildirdilər. Vətən müharibəsində xalq-ordu birliyinin nümayişi olaraq insanlar ordumuzla həmrəylik nümayiş etdirdi, öz şəxsi təsərrüfatlarında yetişdirdikləri məhsullardan ordumuza dəstək göstərdilər. 1991-ci ilin 16 dekabrından başlanan həmrəylik 44 gün davam edən Vətən müharibəsində ölkəmizə qələbə qazandırdı, Azərbaycan torpaqları işğaldan azad edildi. Bu gün ölkəmizdəki həmrəylik həm də dövlətimizin inkişafının,

*Ardı 2-ci səhifədə*



insanların vətənpərvərliyinin göstəricisidir. 30 il əvvəl Naxçıvanda qəbul olunan qərar dünyada yaşayan bütün azərbaycanlıların həmrəylik gününə, həmrəylik nəticəsində qazanılmış qələbə isə dünya azərbaycanlılarının qələbəsinə çevrilmişdir. Ona görə də birliyimiz, həmrəyliyimiz hər il daha da möhkəmlənməli, hər kəs harada işləməsindən, xidmət etməsindən asılı olmayaraq, ölkənin inkişafı, tərəqqisi üçün səy göstərməli, müstəqilliyimizin qorunması naminə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidir. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi, ***"Qələbə qazanmışıq və bu Qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf, təhlükəsizlik və tərəqqi dövrü olacaqdır".***

Ali Məclisin Sədri əsgər və zabitlərə xidməti fəaliyyətlərində uğurlar arzulamışdır.

Zabit İntiqam Ağasıyev minnətdarlıq edərək demişdir: Müstəqil Azərbaycan dövlətinin əbədiyyi ümummilli liderimiz Heydər Əliyevin fəaliyyətinin, xalqımızın bu günü və gələcəyi naminə göstərdiyi misilsiz xidmətləri sayəsində mümkün olmuşdur. Ulu öndərimiz ordu quruculuğuna xüsusi diqqət yetirmiş, onun müdrikliyi və uzaqgörənliyi sayəsində Silahlı Qüvvələrin müasir texnika və silahlarla təchiz olunması, ordunun zabit kadrları ilə komplektləşdirilməsi, hərbi hissələrin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi sahəsində mühüm nailiyyətlər əldə olunmuşdur. Bütün bunlar ölkəmizin Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyevin ulu öndərimizin siyasətini uğurla davam etdirməsinin bəhrələridir. Sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində öz gücünü bütün dünyaya göstərən Azərbaycan Ordusu şanlı zəfər tarixi yazdı. Böyük qürurla və iftixar hissi ilə bildirmək istəyirəm ki, Əlahiddə Ümumqoşun Ordunun hərbçiləri də Qarabağda gedən hərbi əməliyyatlarda böyük şücaət göstərmiş, torpaqlarımızın işğaldan azad olunması üçün canlarından keçərək şəhidlik zirvəsinə yüksəlmiş, qazi olmuşlar. Onlar göstərdikləri rəşadətə görə Ali Baş Komandan tərəfindən "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görülmüş, orden və medallarla təltif olunmuşlar. Fəxrlə sadaladıqlarım bizim üçün örnəkdir. Bundan sonra da xidmət dövründə bu qəhrəmanlıqlardan nümunə götürəcək, vətənimizin keşiyində ayıq-sayıq dayanacağıq.

Əsgər Ziyarət Məmmədov muxtar respublikada ordu quruculuğu sahəsində mühüm tədbirlərin görüldüyünü bildirmiş, Ali Məclis Sədrinin şəxsi heyətlə görüşlərinin birlik və həmrəyliyin nümunəsi olduğunu diqqətə çatdırmışdır. Şəxsi heyət "Hamı bir nəfər, bir nəfər hamı üçün!" şüarını səsləndirmişdir.

Hərbi hissəyə Sədərək rayonundakı yeni yaşayış binasında ikiotaqlı xidməti mənzil verilmişdir.

Ali Məclisin Sədri yeni mənzilin açarını hərbi hissənin zabiti Amil Rəhimliyə təqdim etmişdir.

Amil Rəhimli minnətdarlıq edərək demişdir: Ali Baş Komandanımız cənab İlham Əliyev tərəfindən ordumuzun maddi-texniki bazasının gücləndirilməsi ilə yanaşı, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində də mühüm tədbirlər həyata keçirilir. Xidmət etdiyim Əlahiddə Ümumqoşun Orduda isə bu işlər Ali Məclis Sədrinin daim diqqət mərkəzindədir. Xüsusilə ön xətdə xidmət edən hərbi qulluqçuların ailə üzvləri hərtərəfli şəraitə malik mənzillərlə təmin edilir. Bu da onların rahat yaşamaları ilə yanaşı, xidməti fəaliyyətə də öz müsbət təsirini göstərir.

Sonra Ali Məclisin Sədri hərbi hissədə xidmətin təşkili, şəxsi heyətin qidalanması və döyüş hazırlığının vəziyyəti ilə maraqlanmışdır.

Gətirilmiş ərzaq məhsulları hərbi hissənin anbarına təhvil verilmiş, xidməti mənzillə təmin olunan ailəyə xalça hədiyyə edilmişdir.

* * *

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin kollektivi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Psixi və Ağciyər Xəstəlikləri dispanserləri, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərində olmuş, xəstələrə və tibb işçilərinə hədiyyələr paylanılmış, gətirilmiş ərzaq məhsulları anbarlara təhvil verilmişdir.



**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Tələbələrə sovqat verilib





Dekabrın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə muxtar respublikanın ali təhsil müəssisələrində təhsil alan əcnəbi, eləcə də ölkəmizin digər bölgələrindən olan tələbələrə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə sovqat verilib.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev bildirib ki, muxtar respublikanın ali təhsil müəssisələri hər zaman diqqət və qayğı ilə əhatə olunub, dərslərin tədrisi, imtahanların keçirilməsi üçün əlverişli şərait yaradılıb. Görülən işlərin nəticəsidir ki, muxtar respublikada təhsil almaq istəyən əcnəbi tələbələrin sayı ilbəil artır. Bütün ali təhsil müəssisələrinin tədris korpuslarında və tələbə yataqxanalarında dezinfeksiya işlərinin aparılması, eləcə də əcnəbi tələbələrin qayğı ilə əhatə olunması, onlara pandemiya dövründə ərzaq paylarının ayrılması, lazımi köməkliklər edilməsi göstərilən diqqətin daha bir ifadəsidir. Elbrus İsayev bütün bunlara görə kollektiv adından Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə minnətdarlığını bildirib.

Naxçıvan Dövlət Universitetinin prorektoru Seymur Talıbov çıxış edərək tələbələri 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və böyük tarixi Qələbə münasibətilə təbrik edib, onlara təhsillərində uğurlar arzulayıb. Diqqətə çatdırılıb ki, 2020-ci il ölkəmiz üçün Qələbə ili kimi tarixə yazıldı. Bu ildə ölkəmiz həm siyasi-iqtisadi, həm də sosial sahələrdə böyük uğurlar əldə etdi. Ən böyük uğurumuz isə Ali Baş Komandanımızın qətiyyəti və müzəffər Ordumuzun rəşadəti ilə doğma torpaqlarımızın işğaldan azad edilməsi oldu. Bu şanlı Qələbəmiz Azərbaycan xalqının yaddaşında əbədi olaraq yaşayacaqdır. Vurğulanıb ki, igid oğullarımızın döyüşlərdə göstərdiyi qəhrəmanlıq gənclərimiz üçün əsl vətənpərvərlik nümunəsidir.

Tələbələr yaradılan şəraitə, göstərilən diqqət



və qayğıya görə minnətdarlıq ediblər.

Sonra 290 tələbəyə sovqatlar təqdim olunub.

**"Şərq qapısı"**

# Milli ideologiya və həmrəylik ideyalarının təntənəsi

***Milli birlik və həmrəylik ideyası hər bir xalqın tarixi inkişafında mühüm rol oynayan əsaslı amillərdəndir. Buna nail olmayan xalq heç vaxt müstəqil, azad yaşaya bilməz. Bu mənada, dünya azərbaycanlılarını vahid milli ideologiya və həmrəylik ideyaları ətrafında birləşdirən, Azərbaycan xalqının müstəqillik arzularını gerçəkləşdirən, onu əbədi və dönməz edən ümummilli liderimiz Heydər Əliyev dünənimiz, bu günümüz və gələcəyimiz üçün böyük siyasi irs qoyub. 1991-ci il dekabrın 16-da ulu öndərimizin rəhbərliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında "31 Dekabr – Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərarın qəbul olunması bunu bir daha təsdiq edir.***

Həmin qərara əsasən 1991-ci ilin son günü – 31 dekabrda həmrəylik bayramı ilk dəfə muxtar respublikada qeyd edildi. Dünya azərbaycanlılarının birlik və həmrəyliyi istiqamətində atılmış ilk addım olan bu bayram xalqımızın vahid ideologiya ətrafında birləşməsində mühüm rol oynadı.

Ulu öndər Heydər Əliyev həmin sessiyadakı çıxışında qərarın tarixi-siyasi əhəmiyyətini vurğulayaraq deyib: ***"Dünya Azərbaycan Türklərinin Milli Həmrəylik və Birlik Günü haqqında məsələnin Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasında müzakirə olunması, böyük siyasi əhəmiyyətli qərar qəbul edilməsi Azərbaycan türklərinin uzun illər ayrılıqdan sonra birləşməsi yolunda ilk addımdır. Biz böyük qürur hissi ilə qeyd edə bilərik ki, bu, məhz Naxçıvanda, qədim türk diyarında irəli sürülmüşdür".***

İyirminci əsrin sonlarında gedən prosesləri təhlil etdikdə bir daha görürük ki, 1990-cı ildə Naxçıvandan başlanan Heydər Əliyev xilaskarlıq missiyasının əsas qayəsini məhz xalqımızın vahid ideologiya ətrafında birləşməsi təşkil edirdi. Dünya azərbaycanlılarının birlik və həmrəyliyi istiqamətində Naxçıvanda atılmış addım sonrakı dövrlərdə həmin sahədə həyata keçirilən tədbirlərin kütləvi xarakter almasında, xalqımızın həmrəylik, birlik ideyaları ətrafında birləşməsində mühüm rol oynadı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dünya azərbaycanlılarının təşkilatlanması prosesinin və vahid ideologiya ətrafında sıx birləşməsinin görkəmli dövlət xadiminin adı ilə bağlı olduğunu vurğulayaraq deyib: ***"Dünya azərbaycanlılarının həmrəyliyi və birliyi üçün ulu öndər çox böyük səylər göstərmişdir. Hələ 1991-ci ildə Naxçıvanda Onun təşəbbüsü ilə 31 Dekabr "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" kimi elan edilmişdir. Bu gün, 31 dekabr bizim milli bayramımızdır".***

1991-1993-cü illər ərzində muxtar respublikada görülən məqsədyönlü işlərdə həmrəyliyin, birliyin müsbət nəticələri özünü qabarıq şəkildə göstərdi. Çünki o vaxt elə bir dövr idi ki, Naxçıvan, demək olar, dünyadan təcrid olunmuş, işğal təhlükəsi ilə üz-üzə qalmışdı. Ancaq muxtar respublika sakinlərinin ulu öndərimizin ətrafında sıx birləşməsi, müdrik rəhbərin böyük səyləri və şəxsi nüfuzu hesabına Naxçıvanda çox böyük işlər görüldü. Onlardan ən əhəmiyyətlisi isə, heç şübhəsiz, müstəqil dövlətimizin təməl daşlarını təşkil edən mühüm tarixi qərarların qəbul edilməsidir. Bütün bunlar ona görə mümkün olmuşdur ki, həmin dövrdə ölkəmizin təsərrüfatı, sənayesi dağılmışdısa, Naxçıvanda bu sahələrdə quruculuq işlərinə başlanılmış, torpaq islahatları aparılmışdı. Təsadüfi deyil ki, 1992-ci il noyabrın 21-də Naxçıvanda yaradılan Yeni Azərbaycan Partiyasının əsas ideoloji xətti də milli birlik, milli həmrəylik, Azərbaycançılıq oldu. Bu ideologiya isə real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək məqsədlərinə xidmət edir. Xalqımızın milli-mənəvi dəyərlərindən güc alan Azərbaycançılıq ideologiyası ölkədə vətəndaş birliyinin təmin olunması üçün uğurlu təməl rolunu oynayır. Bu, elə bir ideologiyadır ki, Azərbaycan var olduqca o da var olacaqdır.

Naxçıvanda görülən mühüm işlərin – istər iqtisadiyyat, istərsə də ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərdən əldə edilən nəticələrin bütün Azərbaycan miqyasına yayılması arzusunda olan xalqımız 1993-cü ildə ulu öndərimizin yenidən

*Ardı 3-cü səhifədə*

siyasi hakimiyyətə gəlməsini təkidlə tələb edirdi. Görkəmli dövlət xadimi hakimiyyətə gəldikdən sonra Azərbaycan diasporunun və lobbisinin formalaşdırılması istiqamətində ardıcıl, məqsədyönlü siyasət yürütdü. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların mütəşəkkil diaspor halında formalaşması və güclənməsi, onların siyasi, iqtisadi fəaliyyətlərini genişləndirməsi bu siyasətin prioritet istiqamətlərini təşkil edirdi. Dünya azərbaycanlılarının müstəqil dövlət, vahid məqsəd ətrafında sıx birləşdirilməsi ideyasının müəllifi olmuş ulu öndərimiz xarici ölkələrə etdiyi çoxsaylı səfərlərdə diasporumuzun nümayəndələri ilə görüşlər keçirdi, onların problem və qayğıları ilə yaxından maraqlandı, Azərbaycan dünyanın ayrı-ayrı ölkələrində məskunlaşmış soydaşlarımız üçün milli iftixar, mənəvi dayaq və güvənc yerinə çevrildi. 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi isə milli həmrəyliyin ən yüksək zirvəsi, diaspor quruculuğu sahəsində həlledici mərhələnin başlanğıcı oldu.

Milli idealların, Azərbaycançılıq ideyalarının gerçəkləşməsi yolunda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi mühüm addım idi. Qurultay həm də müstəqil Azərbaycanın və eləcə də dünya azərbaycanlılarının həyatında tarixi ictimai-siyasi hadisə kimi yadda qaldı. Qurultaydan sonra diaspor təşkilatlarının fəaliyyətində canlanma yarandı, soydaşlarımızın bir yerə toplaşdığı təşkilatlar dünyanın hər yerində daha aktiv fəaliyyət göstərməyə başladılar.

Ümummilli liderimizin milli birlik, həmrəylik və Azərbaycançılıq ideyaları bu gün dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Prezidentinin bu sahədə həyata keçirdiyi tədbirlər, soydaşlarımızın vahid ideologiya ətrafında birləşməsi yolunda gördüyü işlər, qəbul etdiyi tarixi qərarlar dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılarda milli ruhun yüksəldilməsinə, onların doğma Vətənə bağlılıqlarının artırılmasına səbəb olub. Prezident cənab İlham Əliyevin 2006-cı il fevralın 8-də imzaladığı Sərəncama əsasən həmin il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi diaspor quruculuğu işinə əsaslı töhfə verdi, 2008-ci il dekabrın 19-da Bakıda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının iclasında Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası qəbul edildi. Bu dövrdən etibarən dövlətimizin diaspor siyasəti xaricdə yaşayan soydaşlarımızın daha mütəşəkkil təşkilatlanması nəticəsində yeni mərhələyə qədəm qoydu. 2016-cı il iyunun 3-də Bakıda öz işinə başlayan Dünya Azərbaycanlılarının IV Qurultayında isə bu istiqamətdə görülmüş işlər, qəbul edilmiş qərarlar, tədbirlər geniş müzakirə olundu. Qurultay dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıları birlik və həmrəyliyinin təntənəsinə çevrildi.

Bu gün dünya azərbaycanlılarının həmrəyliyinin və mütəşəkkilliyinin güclənməsi, ümummilli ideyalar ətrafında birləşməsi üçün daha geniş imkanlar yaranıb. Azərbaycan dövləti nüfuzlu iqtisadi və siyasi gücə çevrilib, beynəlxalq aləmdə onun nüfuzu xeyli artıb. Bu gün biz dünya azərbaycanlılarının ümumbəşəri və milli mədəni hüquqlarının, beynəlxalq konvensiyalarda təsbit edilmiş insan haqlarının qorunmasını təmin etmək üçün daha təsirli vasitələrə malikik. Azərbaycanın siyasi rəhbərliyi dünya azərbaycanlılarının Vətənimizə və xalqımıza mənsubluq hissini gücləndirmək, onların ölkəmizin iqtisadi, mədəni həyatında hərtərəfli iştirakını təmin etmək üçün bütün zəruri tədbirləri görür. Bu isə onların milli şüurunu gündən-günə möhkəmləndirir. Odur ki, müxtəlif ölkələrdəki Azərbaycan diaspor təşkilatları soydaşlarımızın təşkilatlanması, səylərinin birləşdirilməsi, onların fəaliyyətlərinin məqsədyönlü xarakter alması naminə daha faydalı və xüsusi olaraq Azərbaycanı tanıtdırmaq üçün müvafiq tədbirlər həyata keçirirlər.

Bu da qürur hissilə qeyd olunmalıdır ki, milli birliyimiz, həmrəyliyimiz sentyabr ayının 27-də başlayan Vətən müharibəsində özünü bir daha göstərdi. Bu birliyin hesabına 30 ilə yaxın düşmən əsarətində olan torpaqlarımız işğaldan azad edildi. Şanlı Qələbə qazandıq. Noyabr ayının 8-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xalqa müraciətində bu qələbənin məhz birliyimiz hesabına əldə olunmasını xüsusi vurğuladı: ***"Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk! Bu günlərdə dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim, yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq!"***

Dövlət başçısının hər il Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində soydaşlarımıza ünvanladığı təbrikləri ulu öndərin siyasi ideyalarına əsaslanan milli həmrəylik siyasətinin bu gün uğurla davam etdirildiyini göstərir. Yola salmaqda olduğumuz 2020-ci ildə erməni işğalçıları üzərində qazandığımız, milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər xalq-iqtidar birliyi, ümummilli ideyalar uğrunda milli həmrəylik və yekdillik nümayiş etdirmək sayəsində əldə edilmişdir. Azərbaycan Prezidenti bu il dekabrın 29-da dünya azərbaycanlılarına ünvanladığı təbrik məktubunda demişdir: ***"Vətən müharibəsi zamanı Azərbaycan beynəlxalq informasiya məkanında öz sözünü deyərək ölkəmizə qarşı aparılan dezinformasiya kampaniyalarının qarşısını almış, Ermənistanın vandalizmini və mülki insanlara qarşı terror siyasətini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmışdır... Müqəddəs Vətən müharibəsi zamanı xaricdə yaşayan soydaşlarımızın düşmənin və anti-Azərbaycan dairələrin məkrli təxribatlarına qarşı cəsarətli etirazları, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fədakar xidmətləri Qələbəmizə layiqli töhfə olmuşdur"***.

Hər bir azərbaycanlı üçün doğma Vətənimiz ana qucağı kimi isti, ata əli kimi möhkəm və əmin bir məkandır. Bu yüksək dəyərləri bizə aşılayan isə Vətən sevgisi, milli mənsubluq duyğusudur. Bunu yaradan və kütləviləşdirən isə milli ideologiyamız və həmrəylik ideyalarıdır. Nə qədər ki bütün dünyada yaşayan azərbaycanlılar həmrəydir, Azərbaycançılıq ideologiyası ətrafında sıx birləşmişik, heç bir qüvvə bizi sarsıda bilməyəcək.

**"Şərq qapısı"**




## Qalib ordunun cəsur döyüşçüləri

***İşğal edilmiş torpaqlarımızın 44 günlük Vətən müharibəsi ilə geri alındığı 2020-ci il Azərbaycan hərb tarixində Qələbə ili kimi özünəməxsus yer tutaraq yaddaşlardan silinməyəcək. Erməni ordusunun məğlubedilməzlik mifinin darmadağın edilməsi, düşmənin kriminal hərbi-siyasi rejiminin dezinformasiya ilə dünya ictimaiyyətini aldatmasına son qoyulması, Azərbaycan əsgərinin addım səslərini eşidib qaçan düşmən əsgərinin öz xislətinə uyğun olaraq mülki əhalini hədəfə alması, qalib ölkə Azərbaycanda birlik, bərabərlik və həmrəyliyin sarsılmaz olması, məğlub ölkə Ermənistanda isə xaosun hökm sürməsi bu müharibədə şahidi olduqlarımızın həlləlik bir qismidir.***

30 ilə yaxın düşmən tapdağı altında olan ərazilərimiz Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin siyasi iradəsi, əzmkarlıq və qətiyyəti, Azərbaycan Ordusunun yenilməz şücaəti nəticəsində geri qaytarıldı. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin də xüsusi vurğuladığı kimi qazanılan qələbədə naxçıvanlılar da böyük igidlik və şücaət göstərdilər. Onların bu igidlik və qəhrəmanlıqları ölkə başçısı tərəfindən yüksək qiymətləndirildi. Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun, eləcə də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçuları müxtəlif təltiflərə layiq görüldülər.

Vətən müharibəsində Naxçıvan Muxtar Respublikasından olan hərbi qulluqçular da iştirak edərək rəşadətləri ilə tarix yazdılar. Həm Heydər Əliyev adına Hərbi Liseyin məzunları, həm də Naxçıvan Qarnizonu Qoşunlarında təşkil olunan ixtisas hazırlığı kurslarının yetirmələri ərazi bütövlüyümüz uğrunda aparılan müharibədə sərkərdələri ilə fərqləndilər. Əlahiddə Ümumqoşun Ordudan Qarabağda döyüşən şəxsi heyətin peşəkar döyüş taktikası gələcəkdə hərbi dərsliklərdə yer alacaq və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində kursantlara öyrədiləcək.

Təntənəli şəkildə döyüşlərə yola salınanların hər biri qürur və sevinclə "Qarabağ Azərbaycandır!" deyərək yollandı Vətən müharibəsinə. Bu müharibədə döyüşən Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularının xidmət yolu Təlim-Tədris Mərkəzindən başlayıb. Ömrünü hərbi xidmətə bağlamaq istəyən gənclər kurslarda yenilməz döyüşçü kimi yetişiblər. İkinci Qarabağ savaşına nəzər salsaq, görərik ki, hərbi qulluqçuların tapşırıqları peşəkarcasına yerinə yetirməsi kurslarda və təlimlərdə qazanılanların nəticəsidir. Heydər Əliyev adına Hərbi Liseydə gələcəyin zabitlərinin yetişdirilməsi ilə bərabər, Naxçıvan Qarnizonu Qoşunlarında xidmətə yenicə başlamış gənclərimiz hərbi anda, Vətənə və xalqa sadiq peşəkar əsgərlər kimi hazırlanır, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, gizir, zabit və qadın hərbi qulluqçu hazırlığı kursları, eləcə də zabit heyətinin təkmilləşdirilməsi kursu təşkil olunur. Kurslar zamanı siniflərdə nəzəri cəhətdən, Təlim-Tədris Mərkəzindəki məşq qurğularında isə virtual olaraq mənimsənilən vərdişlər, poliqonlarda keçirilən praktik məşğələlərdə və təlim-atış çalışmalarında daha da təkmilləşdirilir. Kursantların müasir silah nümunələrindən döyüş şəraitində bacarıqla istifadə etmək vərdişlərinə yiyələnmələri üçün müxtəlif növ atıcı və iriçaplı silahlardan praktik atışlar, bütün növ zirehli tank texnikalarından sürücülük və atış çalışmaları yerinə yetirilir, döyüşdə sağ qalmaq vərdişləri təkmilləşdirilir. "Təlimdə tər, döyüşdə zəfər!" prinsipi ilə peşəkarlaşan hərbi qulluqçularımız döyüşlərdə "Hamı bir nəfər, bir nəfər hamı üçün!" şüarı ilə geridə yaralı və şəhid buraxmadan böyük əzmlə Şuşa şəhərinədək irəlilədilər. Budur mərdlik, budur döyüşkənlik, budur Qələbə!





Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun işğal altındakı torpaqlarımızın azadlığı uğrunda həyata keçirdiyi zəfər dolu uğurlu əks-hücum əməliyyatı ilə qazandığı qələbə həm mülki əhalidə, həm də ordumuzun şəxsi heyətində böyük qürur hissi yaratdı. Bu uğurlu əməliyyatlarda öz şücaəti ilə düşmənə layiqli cavab verərkən şəhid olan qəhrəman Vətən oğulları Naxçıvan Beynəlxalq Hava Limanında böyük ehtiramla qarşılandı və yüzlərlə gəncin "Şəhidlər ölməz, Vətən bölünməz" şüarları altında son mənzilə yola salındı.

Düşmən Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlılarının gücünə və döyüş əzminə "Günnüt əməliyyatı"ndan bələddir. Vətən müharibəsindən alnıaçıq, üzüağ, qalib olaraq qayıdan qazilərimiz doğma Naxçıvanımızda böyük coşqu ilə qarşılandılar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Naxçıvan Qarnizonunun Hərbi Hospitalında müalicə olunan əsgərlərlə görüşüb, səhhətləri ilə maraqlanması Vətən müharibəsində iştirak etmiş hərbi qulluqçularda böyük ruh yüksəkliyi yaradıb.





Vətən müharibəsi zamanı da Naxçıvan Muxtar Respublikasında artıq ənənə halını almış xalq-ordu birliyini özündə əks etdirən tədbirlər həyata keçirildi. Belə ki, Naxçıvan əhalisinin, müxtəlif dövlət qurumlarının, müəssisə və təşkilatların, ayrı-ayrı sahibkarlıq subyektlərinin hərbi hissələrə baş çəkərək əsgərlərə sovqat aparmaları qeyd olunanlara əyani misaldır.

Hər zaman havadan və qurudan Naxçıvan Muxtar Respublikasının müdafiəsini təmin edən Əlahiddə Ümumqoşun Ordunun bölmələri qızğın döyüşlərin getdiyi vaxtda döyüş növbətçiliyini daha ayıqsayıq təşkil etdilər. Müharibə zamanı düşmənin Naxçıvan Muxtar Respublikası ilə dövlət sərhədində də təxribat cəhdləri müşahidə edildi. Belə ki, Ermənistan silahlı qüvvələrinin oktyabrın 15-də atdığı əməliyyat-taktiki raketi Ordubad rayonu ərazisində partlasa da, xoşbəxtlikdən dinc sakinlərə və mülki obyektlərə zərər dəymədi. Oktyabrın 22-də Sədərək və Şərur rayonları istiqamətində uçuş keçirməyə cəhd edən Ermənistan silahlı qüvvələrinə məxsus taktiki pilotsuz uçuş aparatı bölmələrimiz tərəfindən məhv edildi. Bir daha şahidi olduq ki, hazırlıqlı bölmələrimiz düşmənin istənilən təxribatının qarşısını almağa və hətta qətiyyətli adekvat tədbirlər görməyə qadirdirlər.

Hər tərəfdən dağ silsilələri ilə əhatə olunan Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrdə yaradılan nümunəvi xidmət şəraitinə görə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlıq edən Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti ümummilli lider Heydər Əliyev ideyalarına sadiq qalaraq Vətənimizin müdafiəsi və ərazi bütövlüyümüzün təmin olunması yolunda tarixi zəfərlər qazanır.

Ordumuzun qazandığı 2016-cı ilin Aprel və 2018-ci ilin Günnüt zəfərləri, işğal altında olan ərazilərimizin azad olunması uğrunda aparılan Vətən müharibəsində qazandığımız Qələbə hər birimizi qürurlandırır. Onu da qeyd etməliyik ki, Silahlı Qüvvələrimizin qədim yurd yerimizdəki hissələrində öz xidməti və qulluq borclarını yerinə yetirən əsgər və zabitlərimizin istənilən anda verilən tapşırıqların öhdəsindən uğurla gələ bilməsinin əsasında bu gün Naxçıvanda hərbi xidmət üçün yaradılan şəraitin yüksək səviyyədə olması dayanır.

*Biz fəxr edirik ki, işğal altındakı torpaqlarımızı düşməndən azad edən peşəkar Ordumuz dövlət-xalq-ordu birliyindən güc alaraq tarix yazdı.*

**Nəriman NƏCƏFOV**

# 2021-ci ili qarşılayarkən...
## *Geridə qoyduğumuz il nələrlə xatırlanacaq*



*Bütün dünyanı "Bitsin artıq!", – deməyə vadar edən tarixin 2020-ci səhifəsini artıq bağlayırıq. Bu səhifəyə nələr yazılmadı ki? Dünyanı cənginə alan pandemiya, ilboyu ardı-arası kəsilməyən yanğın, zəlzələ, təbii və antropogen fəlakətlər, minlərlə insan ölümü... Məhz buna görə də dünya mətbuatını araşdırarkən 2020-ci ilin "Fəlakət ili" elan edildiyinin şahidi oluruq. Dünya 2020-ci ilə, təlatümlü bir dövrə qədəm qoymuşdu. Avstraliyada yanğın fəlakəti ilə başlayan il qlobal fəlakətlə davam etdi. Bütün dünyaya yayılmağa başlamış pandemiya 2 milyona yaxın insanın ölümünə səbəb oldu, yüzlərlə dünya və Avropa səviyyəli tədbirlər bu səbəbdən təxirə salındı.*

Bir sözlə, 2020-ci il bəşər tarixində dünya ölkələrinin bir-birindən təcrid olunması və pandemiyaya qarşı birləşməsi ilə yadda qalacaq. Bütün dünya iqtisadi çətinliklər, turizm sektorunun geriləməsi, maddi itki və insan tələfatı ilə bağlı bu ilin uğursuz olduğunu vurğulayır.

Ancaq Azərbaycan xalqı, şübhəsiz, yeganə xalqdır ki, bu ili sevinc, fərəh və qürur hissi ilə tarixinə yazdı. Bu il 30 illik torpaq həsrətimizə son qoyduq, Azərbaycan "Dəmir yumruq" əməliyyatı ilə Türk dünyasının qüruruna çevrildi. Qarabağ, eləcə də Şuşa sevdalı müzəffər Azərbaycan Ordusu ili xalqımız üçün Zəfər ilinə çevirməklə möhtəşəm notlarla tamamladı, "QARABAĞ AZƏRBAYCANDIR!" reallığını bütün dünyaya çatdırdı.



Bütün təzyiqlərə baxmayaraq, qüdrətli Azərbaycan xalqı öz əzmini, həmrəyliyini, birliyini sübut etdi. Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi altında böyük xalqımız və qüdrətli Ordumuz həmrəylik nümayiş etdirdi, dəmir yumruq kimi birləşərək ölkəmizə bütövlük, xalqımıza məğrurluq qazandırdı. Qəhrəman övladlarımız canları, qanları bahasına xalqımızın haqq səsini yüksəltdi, 44 günlük qısa bir zamanda düşmən üzərində Böyük Qələbə qazandı. İndi artıq Qarabağımız azaddır, Azərbaycanımız tamdır. Şanlı üçrəngli bayrağımız 30 ilə yaxındır, həsrətini çəkdiyimiz, azadlığını arzuladığımız o müqəddəs torpaqlarda vüqarla dalğalanır.

Dekabrın 10-da xalqımız qələbəsini Zəfər paradı ilə qeyd etdi. 30 ilə yaxın bir dövr ərzində işğal altında olan tarixi torpağını azad edən müzəffər Ordu öz Zəfər paradı ilə bu gün Cənubi Qafqazda ən qüdrətli, müasir, güclü ordu olduğunu bütün dünyaya nümayiş etdirdi. Şuşaya sancılan Zəfər bayrağı Azadlıq meydanına gətirildi, hərbi qənimət kimi ələ keçirilən erməni hərbi texnikası qalib Azərbaycan xalqına, onun dostlarına, düşmənlərinə əyani surətdə nümayiş etdirildi. 2020-ci il Azərbaycana Zəfər ucalığı, Ermənistana məğlubiyyət damğası, bir sözlə, Azərbaycanın qətiyyətli siyasətinin təntənəsi timsalında dünyaya ədalət möhürünü həkk etdirdi. Xalqımız bu Zəfər münasibətilə müzəffər Ordusunu salamlamağa, onun əzminə tamaşa etməyə çıxdı. Ermənistanda isə bir aydan çoxdur ki, məğlubiyyət, rəzalət və itaətsizlik yürüşü davam edir.

2020-ci il həm də dünyaya inkişafın Naxçıvan modelini də bəyan etdi. Bu, elə bir modeldir ki, pandemiya, blokada demədən öz inkişaf axarını müsbət tendensiyada davam etdirir. Ümummilli lider Heydər Əliyev yoluna sədaqət fonunda aparılan islahatlar ötən illərlə müqayisədə muxtar respublikada bütün sahələrin inkişafını təmin etdi, dünyanı öz ağuşuna alan pandemiyanın təsirlərindən maksimum şəkildə xilas ola bildik. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dekabrın 30-da keçirilən altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyasındakı məruzəsində də qeyd etdiyi kimi, 2020-ci ildə pandemiyanın yaratdığı mənfi təsirlərə baxmayaraq, muxtar respublikada əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ümumi daxili məhsulun həcmi 1,1 faiz artaraq 2 milyard 908 milyon manata yaxın olmuşdur. Onun bir nəfərə düşən həcmi 6 min 310 manat təşkil etmişdir ki, bu da 2019-cu ildəki göstəricidən 1,8 faiz çoxdur. Ümumi daxili məhsulun 59 faizdən çoxu istehsalın payına düşmüşdür. Genişmiqyaslı infrastruktur quruculuğu, iqtisadiyyatın çoxşaxəli inkişafı, minlərlə yeni iş yerlərinin açılması... Bu göstəricilər doğma Naxçıvanımızın son 25 ildəki reallıqlarıdır. Diyarımızı başdan-başa əhatə edən tikinti-quruculuq tədbirləri 2020-ci ildə də geniş vüsət aldı. Cari ilin quruculuq salnaməsinə yeni səhifələr yazıldı. Ordubad rayonunun Vənənd, Şərur rayonunun Muğancıq-Mehrab, Məmmədsabir, Qarabürc, Culfa rayonunun Camaldın kimi bir sıra kəndlərində müasir sosial obyektlər tikilib istifadəyə verildi, yaşayış məntəqələri müasir və abad görkəmə qovuşdu. Quruculuq, abadlıq, yeniləşmə tədbirləri muxtar respublikanın böyük bögələrindən biri olan Babək rayonunu da əhatə etdi, rayon



mərkəzi Babək qəsəbəsi şəhər, Nehrəm və Cəhri kəndləri isə qəsəbə statusları aldı.

Bu il 90 yaşını qeyd etdiyimiz Culfa rayonu da aparılan quruculuq işlərindən öz nəsibini aldı. Culfa şəhərində avtomobil yolları, küçə və prospektlər müasir görkəmə qovuşdu, 11 yaşayış binası yenidən quruldu, Təhsil Şöbəsi və Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi üçün yeni binalar istifadəyə verildi. Naxçıvan şəhərində Sahil Parkı istirahət məkanı, Ordubadda gözəlliyi ilə seçilən Bayraq Meydanı və onlarla digər yeni quruculuq ünvanları 2020-ci ilin doğma Naxçıvanımıza gətirdiyi töhfələrdəndir. Bir sözlə, muxtar respublikanın bütün bölgələrində sadalamaqla bitməyən mühüm quruculuq işləri reallaşdırıldı. Başqa sözlə, Naxçıvanın müasir yaşayış məntəqələri sırasına qoşulan kənd və qəsəbələrimizin sakinləri 2020-ci ili qürur və sevinc ili kimi xatırlayacaq.

2020-ci il həm də ölkəmizdə "Könüllülər ili" kimi yadda qaldı. İl ərzində muxtar respublikada könüllü gənclərin iştirakı ilə çoxsaylı tədbirlər həyata keçirildi. Dövlətimizin onların fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində gənclər əsas qüvvəyə çevrilib. Bu gün muxtar respublika gəncləri cəmiyyətin bütün sahələrində fəallığı ilə seçilir. Bu mənada, gənc könüllüləri, xüsusilə vurğulamaq istəyirəm. Onlar il ərzində onlarla ictimai-siyasi, sosial-iqtisadi, mədəni və digər tədbirlərin həyata keçirilməsində təşəbbüskar kimi fəallıq göstərib, startap layihələri ilə yenilikçi qüvvə kimi çıxış ediblər. "Sabahın tədqiqatçıları" layihəsinin iştirakçısı olmuş məktəblilərimiz əldə etdikləri nəticələrlə beynəlxalq müsabiqələrin qalibi olublar.

Aparılan inkişaf strategiyasından Naxçıvan səhiyyəsi də öz payını alıb. Son illər səhiyyə sahəsinin sürətli inkişafı naminə ardıcıl tədbirlər görülür. Bu il də səhiyyə quruculuğu sahəsində mühüm işlər həyata keçirilib, şəhər və rayonlarda icbari tibbi sığortanın tətbiqi üçün müasir səhiyyə sistemi qurulub. 2020-ci il Naxçıvanda səhiyyə turizminin ən mühüm ünvanlarından olan Duzdağ Fizioterapiya Mərkəzinin də fəaliyyəti genişləndirilib, mərkəz üçün yeni inzibati bina tikilib istifadəyə verilib. İnsanların şəfa, ümid yerinə çevrilən belə çoxsaylı mineral müalicə ocaqlarımızdan biri olan Darıdağ Arsenli Su Müalicəxana kompleksinin, Naxçıvan şəhərində yeni hospital binasının inşası davam etdirilir.

Geridə qoyduğumuz 2020-ci il həm də muxtar respublikada "İxrac ili" kimi yadda qaldı. Bu da əbəs yerə deyil. Çünki muxtar respublikamızda sahibkarlığın, eləcə də ailə təsərrüfatlarının fəaliyyətinin genişlənməsi diqqət mərkəzindədir. Hər il ailə təsərrüfatçılarına dəstək göstərilir, yeni təsərrüfat sahələri yaradılır. Bunun da nəticəsində cari ildə muxtar respublikada istehsal olunan yerli, keyfiyyətli və ixrac potensiallı məhsulların siyahısı daha da genişlənir. Diyarımızda istehsal olunan məhsullarımız nəinki muxtar respublikadakı festival və sərgi-satışlarda, ölkəmizdən kənarda da təmsil olunur, "Naxçıvan" brendi dünya ictimaiyyətinə çatdırılır. Gəlin bir daha faktlara nəzər salaq. Geridə qoyduğumuz 2020-ci ilin ötən dövründə muxtar respublikanın xarici ticarət dövriyyəsi 450 milyon 839 min Amerika Birləşmiş Ştatları dolları təşkil etmişdir. Ticarət əməliyyatlarının 86 faizi, yaxud 387 milyon 540 min Amerika Birləşmiş Ştatları dolları ixracın payına düşmüş, 324 milyon 240 min 600 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

Yola saldığımız il biz jurnalistlər üçün də tarixə yazıldı, mediamızın inkişafında yeni bir mərhələnin başlanğıcının qoyulduğunu bir daha təsdiqlədi. Əsas yaddaqalan nüanslardan biri də, məhz milli mətbuatımızın 145 illik yubileyinin ölkəmizdə, xüsusilə də muxtar respublikamızda yüksək səviyyədə qeyd edilməsi oldu. Muxtar respublikanın kütləvi informasiya vasitələrinin əməkdaşları da səmərəli fəaliyyətlərinə görə təltif edildi, Naxçıvan Dövlət Televiziyasının gənc əməkdaşları mənzillə təmin olundu.

Xülasə, dünyanın "Fəlakət" adlandırdığı 2020-ci il Azərbaycan tarixi üçün qızıl ildir. Dünyada 2020-ci ildə Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası kimi inkişaf edən, nailiyyət qazanan ikinci bir ölkə, diyar olmadı. Vidalaşdığımız il Böyük Zəfər ili oldu. Qarabağda



tarix yazan qəhrəman şəhidlərimizin xatirəsini əziz tutaraq 2021-ci ilə nikbin notlarla qədəm qoyuruq. İnanırıq ki, 2021-ci il də ölkəmizdə böyük quruculuq ili kimi yadda qalacaq. Vandalizm əməlləri törədən düşmənin 30 il ərzində viran etdiyi Qarabağımızın yaşayış məntəqələrini biz qısa zaman ərzində bərpa edəcək, bu torpaqların əsl sahibləri öz həyatlarına davam edəcəklər. Şərqin qapısı Naxçıvan yeni nəqliyyat kommunikasiyalarının inşası ilə dünyaya yenidən açılacaq. Çünki biz ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttini davam etdirən müstəqil dövlətimizlə həmrəyik. Çünki biz qalib və qurucu xalqıq!

**Gülcamal TAHİROVA**

# Mükafatlandırma mərasimi olub

***Gənclər Mərkəzində muxtar respublikanın ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı yeniyetmə və gənclərin mükafatlandırılma mərasimi olub.***

Tədbir Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə keçirilib. Tədbirdə çıxış edən Gənclər və İdman naziri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin sədri Azad Cabbarov vurğulayıb ki, ümummilli liderimiz Heydər Əliyevin şəxsi təşəbbüsü ilə qeyd olunan bu tarix dünya azərbaycanlılarının vahid Vətəni – Azərbaycan Respublikasının ictimai-siyasi maraqları ilə bir olmağa, həmrəyliyə çağırış günüdür. Bu əlamətdar tarix ildən-ilə daha geniş vüsət tapır, ürəklərdə Vətən eşqi, milli və mənəvi birlik, həmrəylik hissləri bəsləyən hər bir soydaşımız tərəfindən rəğbətlə qeyd edilir.

Bildirilib ki, yola saldığımız ildə qazandığımız tarixi qələbə xalqımızın həmrəyliyi, düşmənə qarşı birgə mübarizəmiz sayəsində əldə olundu. Vurğulanıb ki, muxtar respublikanın ictimai-siyasi həyatında yaxından iştirak edən gənclərimizin fəaliyyəti dövlətimiz tərəfindən mükafatlandırılır.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı yeniyetmə və gənclər mükafatlandırılıblar. Qeyd edək ki, Gənclər və İdman Nazirliyi tərəfindən müxtəlif nominasiyaların qaliblərini müəyyən etmək üçün internet vasitəsilə sosial sorğu keçirilib. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda göstərdiyi şücaətə görə Vətən müharibəsi iştirakçısı olan gənc hərbçilərimiz də mükafatlandırılıblar.

**Türkan HÜSEYNLİ**

### *İtmişdir*

Şərur rayonu, Kosacan kəndində yaşamış Tağıyev İsa Tağı oğlunun adına olan JN-244A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Mahmudkənd sakini Hacıyev Oktay İdris oğlunun adına olan torpaq sahəsinin yerləşdiyi yerin 0779 nömrəli sxemi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 1